AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

Kapital Bank

RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

# Coğrafiya
## aşağı yaş qrupu (8-9-cu siniflər)

Ad____________________ Soyad____________________

*İmtahan müddəti **180** dəqiqədir.
*__1-10__-cu suallar **3 bal**, **11-20**-ci suallar **4 bal**, **21-30**-cu suallar **5 bal** ilə qiymətləndirilir.
*Hər səhv cavablandırılmış sual öz dəyərinin ¼-i qədər bal aparır.
*Nəzarətçilərə yalnız cavab kağızı təqdim olunur.
*Olimpiadanın nəticələrini 06.03.2024-cü il tarixindən etibarən **www.portal.edu.az** saytından və ya təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**UĞURLAR!**

**24.02.2024**

**1.** Cədvəldəki təbii ehtiyatları nəzərə alaraq, doğru bəndi müəyyən edin.

| Tükənən, bərpa olunan | Tükənən, bərpa olunmayan |
|---|---|
| 1. Torpaq<br>2. Daş kömür<br>3. Bitki və heyvan<br>4. Günəş enerjisi | 5. Polimetal<br>6. Geotermal enerji<br>7. Külək<br>8. Təbii qaz |

A) 4, 5, 7, 8
B) 1, 2, 6, 7
C) 2, 3, 5, 6
D) 1, 3, 4, 7
E) 1, 3, 5, 8

**2.** Adalararası dənizləri seçin.
1. Baffin
2. Sarqass
3. Banda
4. Mərcan
5. Yava
6. Andaman

A) 2, 4, 6
B) 1, 3, 5
C) 3, 4, 5
D) 1, 2, 3
E) 3, 5, 6

**3**. Cədvələ əsasən müvafiq materiklərə aid olan doğru fikirləri müəyyən edin.

| Avrasiya materiki | Avstraliya materiki |
|---|---|
| 1. Daxili axarsız hövzəyə aid olan ən uzun çayının mənsəbi subtropik iqlim qurşağında yerləşir.<br>2. Şimal yarımkürəsində bütün iqlim qurşaqlarına rast gəlinir.<br>3. Faylı, qırışıq faylı və qırışıq dağlara rast gəlinir. | 4. Arqayl gölü (su anbarı) ərazisində yerləşir.<br>5. Səhralara yalnız tropik iqlim qurşağının yayıldığı ərazilərdə rast gəlinir.<br>6. Antarktida materikinə ən yaxın yerləşən materikdir. |

A) 2, 3, 4
B) 1, 3, 4
C) 2, 5, 6
D) 1, 3, 5
E) 1, 4, 6

**4**. Eyni təbii zonanın rast gəlindiyi yarımadaları müəyyən edin.
A) Tayır, Labrador, Yutlandiya
B) Florida, Yukatan, Bretan
C) Arnemlend, Somali, Hindistan
D) Pireney, Apennin, Koreya
E) Kamçatka, Keyp-York, Alyaska

**5.** Şəkildə ölkəmizdə yerləşən göl verilmişdir. Gölün suyundan içməli su kimi istifadə olunur. Bu gölə aid olan doğru fikirləri müəyyən edin.



1. Kür çayının su toplayıcı hövzəsində yerləşir.
2. Tektonik çökmə zonasında yerləşir.
3. Gəncə-Daşkəsən iqtisadi rayonunda yerləşir.
4. Dağ-tundra iqlimində yerləşir.
5. Qarabağ vulkanik yaylasında yerləşir.
6. Ətrafında milli park yaradılmışdır.
A) 1, 5, 6
B) 1, 3, 5
C) 2, 4, 6
D) 1, 3, 6
E) 1, 2, 4

**6.** Xəritədə təsvir edilmişdir:




A) Dünya okeanının suyunun orta duzluluğu
B) Dünya okeanında mövcud olan novşəkilli çökəkliklər
C) Dünya okeanının dibindəki süxurların yaşı
D) materiklərdə yayılmış süxurların yaşı
E) şelf düzənliklərinin yeri

**7.** Aşağıdakı əlamətləri nəzərə alaraq, doğru fikirləri müəyyən edin.
*– Şimali Amerika materikində rast gəlinir.*
*– Ölkəmizdə rast gəlinmir.*
*– Avstraliya materikinin şimal sahillərində yayılmışdır.*
A) Səhra təbii zonasıdır və ən çox Afrika materikində yayılıb.
B) Çöl təbii zonasıdır və ən çox Avrasiya materikində yayılıb.
C) Aralıq dəniz iqlim tipidir və ən çox Avropa qitəsində yayılıb.
D) Musson iqlim tipidir və ən çox Avrasiya materikində yayılıb.
E) Savanna və seyrək meşələr təbii zonasıdır, əsasən tropik və subekvatorial iqlim qurşağında yaranır.

**8.** Eyni iqlim qurşağında yerləşən coğrafi obyektlər:
A) Baltik, Berinq və Karib dənizləri
B) Kalimantan, Sulavesi və Kuba adaları
C) Appalaç, Karpat və Əndəlüs dağları
D) Biskay, Şelixov və Siam körfəzləri
E) Kamçatka, Alyaska və Yutlandiya yarımadaları

**9**. Filippin arxipelaqı üçün doğrudur:
I. İki iqlim və iki işıqlanma qurşağında yerləşir.
II. Çayları bir okeanın sutoplayıcı hövzəsində yerləşir.
III. Fəaliyyətdə olan vulkan mövcuddur.
IV. Ən böyük adaları Luson və Sulavesidir.
A) yalnız IV
B) yalnız II
C) II və IV
D) II və III
E) I, II və III

**10.** Uyğunluğu müəyyən edin.
*I. Litosfer tavalarının divergent sərhədi*
*II. Litosfer tavalarının konvergent sərhədi*
a. Ukayali çayının mənbəyinin mövcud olduğu dağ yerləşir.
b. Şasta vulkanı yerləşir.
c. Qalapaqos adaları yerləşir.
d. Hind-Avstraliya və Afrika tavaları arasındakı sərhəd uyğun gəlir.
e. Baffin Torpağı adası yerləşir.
A) I- b, d; II-a, c
B) I-a, b, d; II-c, e
C) I-c, d, e; II-a, b
D) I-c, d; II-a, b
E) I-c, e; II-a, b, d

**11**. Ümumdünya Mədəni İrs obyektlərinin ən az paya sahib olduğu region, materik və ya qitə:
A) Şimali Amerika
B) Asiya
C) Avropa
D) Afrika
E) Latın Amerikası

**12.** Doğru fikirləri müəyyən edin.
1. Labrador, Kanar və Kurosio okean cərəyanları keçdiyi sahillərdə rütubətin miqdarını azaldır.
2. Okean cərəyanları duzluluğun zonal paylanmasını pozur.
3. Okean səthindəki duzluluqla, 2000 metr dərinlikdəki duzluluq eyni deyil.
4. Sunami dalğaları sahilə yaxınlaşdıqca sürət artır, hündürlük isə azalır.
5. Yerin xəyali oxu ətrafında hərəkəti dalğaların hərəkət istiqamətinə təsir etmir.
6. Mərmərə dənizinin orta duzluluğu Qara dənizin orta duzluluğundan daha çoxdur.
A) 1, 3, 5
B) 2, 3, 6
C) 2, 4, 5
D) 3, 5, 6
E) 1, 2, 4

**13.** Kəsmə yüksəkliyi 400 metr olan horizontal-sxemə əsasən K məntəqəsində atmosfer təzyiqinin, ölkəmizdə yerləşən və Qarabağ silsiləsinin ən yüksək zirvəsi olan Böyük Kirs zirvəsindəki atmosfer təzyiqinə bərabər olduğunu nəzərə alaraq, L məntəqəsindəki atmosfer təzyiqinin neçə mm civə sütununa bərabər olduğunu müəyyən edin.




A) 720,4
B) 647,5
C) 344,6
D) 570,5
E) 580,8

**14.** Saat qurşaqları ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Dörd yarımkürədə yerləşən saat qurşaqları həm də bütün uzunluqlarda yerləşir.
2. XXII saat qurşağının şərq sərhədi ilə Bakı şəhəri arasındakı yerli vaxt fərqi 290 dəqiqədir.
3. III saat qurşağının orta meridianı ölkəmizdən keçir.
4. Yalnız bir materik və bir okeanla kəsişən saat qurşağı mövcud deyil.
5. Tokio şəhəri IX, Astana şəhəri isə VIII saat qurşağında yerləşir.
6. Şimali və Cənubi Amerika materikləri 180°-lik meridianla kəsişir.
A) 3, 5, 6
B) 1, 3, 4
C) 2, 3, 4
D) 1, 2, 5
E) 4, 5, 6

**15**. Doğru fikirləri müəyyən edin.
1. Naxçıvanda və Kəlbəcərdə travertin faydalı qazıntı ehtiyatları mövcuddur.
2. Ölkəmizin ərazisinin 27%-i okean səviyyəsindən aşağıda yerləşir.
3. Filizçay yatağı dəmir filizi ehtiyatı ilə zəngindir.
4. Acınohur, Hərəmi və Qarayazı düzləri müxtəlif tektonik zonalarda yerləşir.
5. Böyük Çin düzənliyində alüminiumum istehsalı üçün iri xammal yataqları mövcuddur.
6. Şərqi Avropa düzənliyi apatit və fosforit ehtiyatları ilə zəngindir.
A) 1, 5, 6
B) 2, 3, 5
C) 1, 2, 4
D) 1, 2, 6
E) 3, 4, 5

**16.** Düzgün ***olmayan*** fikirləri müəyyən edin.
A) Balxaş və İssık-Kul gölləri daxili axarsız hövzəyə aiddir.
B) Aral gölü iki ölkənin ərazisində yerləşir.
C) Amudərya və Sırdərya çayları yay aylarında bolsulu olur.
D) Aral gölünün yerləşdiyi ərazi səhra və yarımsəhra təbii zonasıdır.
E) Qaraqum suvarma kanalı Sırdərya çayından başlayır.

**17.** 01.01.2014-cü ildə **A** ölkəsində əhalinin sayı 30,5 milyon nəfər, təbii artım isə 1000 nəfərə 16 nəfər olmuşdur. **A** ölkəsində emiqrantların sayının təbii artımın 20%-i qədər olduğunu nəzərə alaraq, 01.01.2015-ci il tarixi üçün əhalinin ümumi sayını müəyyən edin.
A) 30550000 nəfər
B) 30937500 nəfər
C) 31244500 nəfər
D) 30890400 nəfər
E) 31287550 nəfər

**18.** Cədvələ əsasən uyğunluğu müəyyən edin.
1. Po çayı
2. Taxo çayı
3. Dunay çayı
4. Peçora çayı
5. Ural çayı
6. Don çayı

| № | Çaylar | Ümumi xüsusiyyətlər |
|---|---|---|
| I | 1, 3, 6 | Eroziya bazisi daxili dənizdir. |
| II | 2, 4, 5 | Bir neçə ölkənin ərazisindən axır. |
| III | 1, 2, 3 | İqtisadi inkişaf səviyyəsinə görə İEÖ ərazisindən axır. |
| IV | 3, 4, 5 | Axdığı ərazilərdə mülayim iqlim qurşağına rast gəlinir. |
| V | 4, 5, 6 | Ölkəmizdən şimal-şərqdə yerləşir. |
| VI | 3, 5, 6 | Atlanik okeanın sutoplayıcı hövzəsinə aiddir. |

A) II, III, VI
B) I, III, IV
C) III, IV, V
D) I, IV, VI
E) I, II, V

**19.** Cədvələ əsasən, doğru bəndi müəyyən edin.

| **And dağları** | **Kordilyer dağları** |
|---|---|
| 1. Bu dağlardan başlayan çaylar iki okean hövzəsinə aiddir.<br>2. Ən hündür zirvəsi Ekvator xəttindən şimalda yerləşir.<br>3. Nəhəng “mis qurşağı” yerləşir. | 4. Həm sönmüş, həm də fəaliyyətdə olan vulkanlar mövcuddur və relyef amplitudu 6250 metrdən çoxdur.<br>5. Yalnız İEÖ-lərin ərazisində yerləşir.<br>6. Litosfer tavalarının divergent sərhədində yerləşir. |

A) 1, 4, 5
B) 2, 5, 6
C) 1, 3, 4
D) 2, 3, 4
E) 1, 4, 6

**20.** Cədvəldəki çayları nəzərə alaraq, doğru fikirləri müəyyən edin.

| Araz çayı | Kür çayı |
|---|---|
| 1. Əsas çaya birləşdiyi məntəqə Dünya okeanı səviyyəsindən yuxarıda yerləşir.<br>2. Oxçuçay, Gilançay və Köndələnçay qollarıdır.<br>3. Ölkəmizdə axdığı ərazi iki tektonik zonada yerləşir. | 4. Sarısu, Hacıqabul və Acınohur gölləri axmazında formalaşıb.<br>5. Türyançay, Zəyəmçay və Qarqarçay qollarıdır.<br>6. Tovuz, Salyan və Şəmkir inzibati rayonları hər iki sahilində yerləşir. |

A) 2, 5, 6
B) 1, 3, 6
C) 2, 4, 5
D) 1, 2, 6
E) 2, 3, 4

**21.** Uyğunluğu müəyyən edin.

| Doğru | Yanlış |
|---|---|
| 1. Antarktida materikində daş kömür və mis faydalı qazıntı ehtiyatları mövcud deyil.<br>2. 40-45° cənub enliyindən cənubda yerləşən ərazi Antarktika adlanır.<br>3. Relyef xüsusiyyətlərinə görə adlandırılmış Şimal və Qərbi Afrika regionunda fəaliyyətdə olan vulkan mövcuddur. | 4. Qrand-Kuli SES-nın üzərində yerləşdiyi çayın mənsəbi Kaliforniya körfəzidir.<br>5. Avstraliya materikində tropik xətii ilə kəsilən bütün ərazilərdə səhra təbii zonasına rast gəlinir.<br>6. Tektonik proseslərin təsiri ilə Somali yarımadası Afrika materikindən uzaqlaşır. |

A) 1, 2, 4
B) 1, 3, 6
C) 2, 3, 5
D) 3, 4, 5
E) 2, 5, 6

**22.** Cədvələ əsasən, doğru ***olmayan*** fikirləri müəyyən edin.

| Afrika materiki | Avstraliya materiki |
|---|---|
| 1. Şimal və cənub ucqar nöqtələri subtropik iqlim qurşağında yerləşir.<br>2. Ən çox yağıntı fəaliyyətdə olan vulkanın yerləşdiyi dağın yamacına düşür.<br>3. Nəhəng “qalay-volfram qurşağı” yerləşir. | 4. Havanın ən yüksək temperaturu 127,0°F olaraq qeydə alınmışdır.<br>5. Sahillərinin çox hissəsini Hind okeanının suları yuduğu üçün bu okeanın sutoplayıcı hövzəsi ən geniş sahə tutur.<br>6. Codyarpaqlı meşə və kolluqlar təbii zonasına rast gəlinmir. |

A) 1, 2, 3
B) 1, 4, 6
C) 2, 3, 4
D) 1, 2, 5
E) 3, 5, 6

**23.** Cədvəldəki ***uyğunsuzluğu*** müəyyən edin.

| | | |
|---|---|---|
| 1 | 50° şimal enliyində Qütb ulduzunun (Polaris) görünmə bucağı ilə günorta vaxtı günəş şüalarının düşmə bucağı bərabər olduğu vaxt, 10° şimal enliyində şaquli cisimlərin kölgə uzunluğu sıfra bərabər olar. | *doğru* |
| 2 | Bütün uzunluqlarda yerləşən materikdə gecə və gündüzün adi növbələşməsinin pozulmadığı ərazilər mövcuddur. | *yanlış* |
| 3 | Naxçıvanın ən yüksək dağlıq ərazilərində yağıntıların orta illik miqdarı 600 mm-dən çoxdur. | *yanlış* |
| 4 | Azor antisiklonu üzərindən formalaşaraq ölkəmizə daxil olan hava kütləsi havanın temperaturunun və yağıntıların miqdarının azalmasına səbəb olur. | *doğru* |
| 5 | Daxili dənizlərdə qabarma dalğasının hündürlüyü kiçik olur. | *doğru* |

A) 2, 4, 5
B) 1, 3, 5
C) 2, 3, 4
D) 1, 4, 5
E) 1, 2, 3

**24.** İqdisadi rayonlara aid doğru sıraları müəyyən edin.

| № | Quba-Xaçmaz | Gəncə-Daşkəsən | Şərqi Zəngəzur |
|---|---|---|---|
| 1 | Xızı inzibati rayonu yerləşir. | Şəmkir inzibati rayonu yerləşir. | Cəbrayıl inzibati rayonu yerləşir. |
| 2 | Mülayim-isti iqlim tipi yayılıb. | Yarımsəhra və quru-çöl iqlim tipi yayılıb. | Yarımsəhra və quru-çöl iqlim tipi yayılıb. |
| 3 | İki tektonik zonada yerləşir | İki tektonik zonada yerləşir | Bütün inzibati rayonların xarici ölkə ilə sərhədləri mövcuddur. |
| 4 | Ərazisində milli park yerləşir. | Ərazisində milli park yerləşir. | Ərazisində qoruq yerləşir. |
| 5 | Ləngəbiz silsiləsi yerləşir. | Ərazisindən Kür çayı keçir. | IV dövrün vulkanik suxurları yayılmışdır. |
| 6 | Bakı iqtisadi rayonu ilə həmsərhəddir. | Dəmir filizi və alüminium xammalı faydalı qazıntı ehtiyatları mövcuddur. | Xankəndi şəhəri yerləşir. |

A) 2, 3, 5
B) 2, 3, 4
C) 2, 4, 6
D) 1, 3, 6
E) 1, 4, 5

**25.** Cədvələ əsasən, uyğunluğu müəyyən edin.

| | | | |
|---|---|---|---|
| 1 | ***Kombinələşmə*** | İstehsalın təşkil formalarından biri olub texnoloji cəhətdən bir-biri ilə əlaqəli olan bir neçə ixtisaslaşmış istehsal sahələri bir müəssədə cəmlənir. | *yanlış* |
| 2 | ***Emiqrasiya*** | Müvəqqəti və qısamüddətli yaşayış üçün əhali ölkəni tərk edir. | *yanlış* |
| 3 | ***Batiskaf*** | Bataqlıqların və çayların dərinliklərini tədqiq etmək üçün müstəqil idarə edilən aparatdır. | *doğru* |
| 4 | ***Tetis okeanı*** | Geoloji dövrlər ərzində enlik istiqamətində Vest-Hind adalarından başlayaraq Böyük Zond arxipelaqına qədər uzanmışdır. | *doğru* |
| 5 | ***Meliorasiya*** | Məhsuldarlığı aşağı düşmüş torpaqların bərpası məqsədi ilə (torpaqlara üzvi və mineral gübrələr verilir, şoran ərazilərdə kollektor-drenaj şəbəkəsi yaradılır, tarlaqoruyucu meşə zolaqları salınır, şoranlıqlar yuyulur, bataqlıqlar qurudulur) görülən tədbirlər sistemidir. | *yanlış* |

A) 1, 5
B) 3, 5
C) 1, 2
D) 3, 4
E) 2, 4

**26.** AES-lərdə baş verən qəzalar çox ciddi təhlükələrə səbəb olur. 1986-cı ildə baş verən AES qəzasının olduğu ölkə ilə bağlı cədvəldəki uyğunluğu müəyyən edin.

| Doğru | Yanlış |
|---|---|
| 1. Sahilləri kənar dənizlərin suları ilə yuyulur.<br>2. Ərazisində meşə-çöl və çöllər təbii zonasına rast gəlinir.<br>3. Ərazisindən axan ən uzun çay daxili axarsız hövzəyə aiddir. | 4. Əhalisi Əfqanıstanın əhalisi ilə eyni dil ailəsinə mənsubdur.<br>5. İnzibati ərazi bölgüsünə görə federativ ölkədir.<br>6. Ərazisində cavan dağlar mövcud deyil. |

A) 1, 2, 3
B) 1, 3, 5
C) 2, 4, 5
D) 2, 5, 6
E) 4, 5, 6

**27.** Cədvəldəki iqlim diaqramlarını nəzərə alaraq, doğru ***olmayan*** fikirləri müəyyən edin.

| | |
|---|---|
|   |   |
| 1. Aid olduğu məntəqənin yeləşdiyi inzibati rayonun bütün ərazisi dəniz səviyyəsindən aşağıdır.<br>2. Aid olduğu inzibati rayon xarici ölkə ilə həmsərhəddir.<br>3. Aid olduğu məntəqə mülayim-isti iqlim tipində yerləşir. | 4. Aid olduğu məntəqənin yeləşdiyi inzibati rayon iki tektonik zonaya uyğun gəlir.<br>5. Aid olduğu məntəqənin yerləşdiyi inzibati rayon 450 milyon il əvvəl su altında olmuşdur.<br>6. Aid olduğu məntəqənin yerləşdiyi iqlim tipi ölkəmizin 50%-dən çox ərazisində yayılmışdır. |

A) 2, 5, 6
B) 1, 3, 4
C) 1, 2, 6
D) 1, 2, 3
E) 2, 4, 6

**28.** Eyler- Venn diaqramını tamamlayan bəndi müəyyən edin.




1. Qütb dairələrində gecə və gündüzün uzunluqları arasındakı fərq maksimum olur.
2. Günəş Hind okeanında zenitdə olur.
3. İşıqlanma qurşaqlarının sərhədləri dəyişir.
4. Ekvator xətti ilə kəsişən ərazilərdə gecə və gündüzun uzunluğu arasında fərq olmur.
5. Şimal və Cənub yarımkürələri bərabər işıqlanır.
6. Cənubi Amerika materikinin ərazisində şaquli cisimlərin kölgəsinin uzunluğunun sıfra bərabər olduğu məntəqələrə rast gəlinir.

A) 4, 5, 6
B) 1, 2, 6
C) 3, 4, 5
D) 1, 2, 3
E) 1, 2, 4

**29.** Eyler-Venn diaqramına əsasən materiklər üçün uyğunluğu müəyyən edin.




a. Sahillərini iki okeanın suları yuyur, həm Şimal, həm də Cənub yarımkürələrində yerləşir.
b. I–XII aralığında olan heç bir saat qurşağında yerləşmir.
c. Şimal ucqar nöqtələrində günəş zenitdə olmur.
d. Qərb sahilləri litosfer tavalarının sərhədlərinə daha yaxındır.
A) 1-b,d; 2-c; 3-a
B) 1-b; 2-c,d; 3-a
C) 1-a,c; 2-b, 3-d
D) 1-c; 2-b,d; 3-a
E) 1-a,b; 2-d; 3-c

**30.** Materiklərin ucqar nöqtələri ilə bağlı doğru fikirləri müəyyən edin.

1. Piay, Maryato və Frouerd materiklərin cənub ucqar nöqtələridir.
2. Dejnyov, Roka və Almadi ucqar nöqtələri Qərb yarımkürəsində yerləşir.
3. Sent-Çarlz, Almadi və Kabu-Branku ucqar nöqtələri fərqli okeanların sahillərində yerləşir.
4. Parinyas, Ras-Hafun və Bayron ucqar nöqtələri Cənub yarımkürəsində yerləşir.
5. Merçison, Çelyuskin və Sent-Çarlz ucqar nöqtələrində gecə və gündüzün adi növbələşməsi pozulur.
6. Maryato, York və Ras-Hafun ucqar nöqtələri subekvatorial iqlim qurşağında yerləşir.

A) 4, 5, 6
B) 1, 3, 5
C) 1, 2, 6
D) 2, 4, 6
E) 2, 3, 5